# Ankarada "Bəxtiyar Vahabzadə – 100" ilinə təntənəli start verildi




**Bugünlərdə qardaş Türkiyənin paytaxtında Azərbaycanın istiqlal nəğməkarı, Türk dünyasının sevimli şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illik yubiley tədbirlərinə start verilib.**

Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və TÜRKSOY – Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının təşkil etdiyi açılış mərasimində Azərbaycan Prezidentinin əlamətdar yubiley barədə sərəncamından irəli gələn vəzifələr, Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyinin Türk dünyasında silsilə təntənələrlə qeyd edilməsi ilə bağlı məsələlər diqqət mərkəzində olub.

**Açılış məclisinin iştirakçısı AMEA Ədəbiyyat İnstitutu baş direktorunun müşaviri, filologiya elmləri doktoru, professor Əlizadə Əsgərli XQ-yə açıqlamasında bildirdi:**

– İdealı böyüklük, arzusu təmizlik, məqsədi yüksəklik, eşqi gözəllik olan Bəxtiyar Vahabzadənin türklük sevgisinin qanadlarında qardaş Türkiyəmizə uçduq, sevimli Ankaramızda olduq. Böyük İnsan məhəbbəti, yurd sevgisi, qəlb atəşi ilə Türk dünyasında ölməzlik qazanmış Xalq şairimiz Bəxtiyar Vahabzadənin 100 ilik yubiley ilinin açılış mərasimində iştirakdan hədsiz qürurlandıq.

Toplantının proqramı TRT Ankara Radiosu Xorunun konserti ilə başlandı. Ünlü musiqi kollektivinin bədii rəhbərinin Azərbaycan sənətçisi Elnarə Kərimova, pianoçunun isə soydaşımız Nailə Əhmədova olması öyüncümüzü bir az da artırdı. Solistlər Mələk Aşık və Çinar Onur Önər Bəxtiyar Vahabzadənin sözlərinə bəstəkarlar Aqşin Əlizadənin "Ana torpaq", Hikmət Şimşəyin "Azərbaycan–Türkiyə" və Cavanşir Quliyevin "Azərbaycan –Türkiyə" mahnılarını təntənə ilə səsləndirdilər.

Bəxtiyar Vahabzadənin əsərləri və haqqında yazılmış kitablardan ibarət sərgidə ekspozisiyanın təşkilatçısı Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov biblioqrafik məlumatla çıxış etdi. Sonra yubiley ili ilə bağlı müzakirələr başlandı.

TÜRKSOY-un baş katibi Sultan Rayev, Azərbaycanın Mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Türkiyə Cümhuriyyəti Mədəniyyət və turizm nazirinin müavini Sərdar Çam, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov yubileyə hazırlıq tədbirlərindən söz açdılar. Bəxtiyar Vahabzadənin ömür yolundan bəhs edən filmin nümayişindən sonra "Doğumunun 100-cü ilində Bəxtiyar Vahabzadə" mövzusunda konfrans keçirildi.

**Müsahibimiz daha sonra söylədi ki,** elmi məclisdə Xalq şairi Sabir Rüstəmxanlının "Bəxtiyar Vahabzadə və Azərbaycanın müstəqillik hərəkatı", Qarsdakı Qafqaz Universitesinin türk dili və ədəbiyyatı kafedrasının müdiri professor Mitat Durmuşun "Bəxtiyar Vahabzadənin şeirlərində tarix və milli kimlik", Ankara Universitesinin çağdaş türk ləhcələri və ədəbiyyatları şöbəsinin əməkdaşı dosent Rza Heyətin "Xatirələrimdəki Bəxtiyar Vahabzadə" mövzularında məruzələri dinlənilib. Professor Kərim Tahirov konfransda "Türk dünyasının Bəxtiyarı" elektron bilgi təqdimatı, professor Əlizadə Əsgərli isə "Bəxtiyar Vahabzadə yaradıcılığında azərbaycançılıq, türkçülük və turançılıq məfkurəsi" mövzusunda məruzə ilə çıxış ediblər.

Mərasimin bədii hissəsində Ankara Universitesinin azərbaycanlı tələbəsi Solmaz İsmayılova, Qazi Universitesinin moldovan tələbəsi Viktoria Burca Bəxtiyar Vahabzadənin şeirlərini səsləndiriblər. Muğam ustalarımızdan Xalq artisti Mələkxanım Əyyubova, kamançaçı Araz Ağaverdiyev, nağaraşalan Ramin Abdullayev və tarzən Altay Niftalıyevin məharətli ifaları alqışlarla qarşılanıb.

Həmin gün Ankarada Bəxtiyar Vahabzadə adına məktəbin müəllim və şagirdləri ilə də görüş keçirilib. Uşaqların "Bəxtiyar Vahabzadə və Azərbaycan" mövzusunda rəsm sərgisi, Sabir Rüstəmxanlının hərarətli çıxışı, yubilyarın şeirlərinə yazılmış mahnılar Türk dünyasının böyük şairinə sevgi və ehtiramı təcəssüm etdirib.

**Hazırladı: Tahir AYDINOĞLU**
**XQ**

Xalq qəzeti .- 2025.- 25 fevral (№ 42).- S.14.